# Almaniyada kitabxana işi

**Məqalənin əvvəli ötən sayımızda dərc olunub.**

***Leypsiq Alman kitabxanası***

Kitabxana 1912-ci ildən Milli biblioqrafiyanın mərkəz funksiyasını yerinə yetirir. Bu məqsədlə kitabxana milli ədəbiyyatın toplanması ilə məşğul olur. Kitabxana 1941-ci ildən xarici dillərdə nəşr olunmuş alman ədəbiyyatını, 1943-cü ildən çap olunan not nəşrlərini, bədii ədəbiyyatın surətlərini, patentləri, plastinka və beynəlxalq təşkilatların nəşrlərini toplayır. Kitabxana həmçinin 1933-cü ildən 1945-ci ilə qədər alman mühacirət ədəbiyyatının mühafizəsini də icra edir. 1969-cu ilə qədər kitabxana iki alman dövləti ərazisində çapdan çıxan nəşrlərin məcburi nüsxələrini də əldə etmişdir. Onun struktur tərkibinə Alman muzey kitabı və yazılı abidələri, həmçinin Alman muzey kağızı daxildir.

1946-cı ildə Frankfurt-na-Mayn şəhərində Alman kitabxanasının təşkilinə səbəb Almaniyanın bölünməsi nəticəsində iki müstəqil dövlətə parçalanması olmuşdur. Həmin kitabxana Qərbi Almaniyanın Milli arxivinin və 1945-ci ildən Almaniya haqqında nəşrlərin toplanması funksiyasını yerinə yetirir. Ancaq Almaniya haqqında rəsmi qaydada məcburi nüsxələr 1969-cu ildən sonra daxil olmağa başlamışdır. Kitabxana Almaniyada və onun sərhədlərindən kənarda alman dilində nəşr edilmiş bütün əsərləri, alman ədəbiyyatının tərcümələrini, Almaniya haqqında ədəbiyyatı və alman mühacir ədəbiyyatını toplayır. Kitabxana alman Milli biblioqrafiyasını da çap edir.

Frankfurt-na-Mayn şəhərinin Alman kitabxanası informasiya məhsullarının və xidmətlərinin göstərilməsində müasir texnologiyaların tətbiqi sahəsində böyük nailiyyətlər əldə etmişdir. 1970-ci ildə musiqi nəşrlərinin saxlanması üçün Qərbi Almaniyada öz filialını açmış və sonralar Alman musiqi arxivi adını alaraq müstəqil təşkilata çevrilmişdir. 1974-cü ildən o, beynəlxalq kitab standartı nömrəsi (İSBN) üzrə alman mərkəzi hesab olunur. Beləliklə Almaniyanın birləşdirilməsinə qədər iki Milli kitabxana olub, hər biri öz ərazisində kitabxana və biblioqrafiya üzrə aparıcı müəssisə funksiyasını yerinə yetirirdi.

Alman kitabxanası (Disc Deutsche Bibliothek)- bu yeni müəssisə federasiya tərəfindən maliyyələşdirilən müstəqil kitabxanaların (Leypsiq, Frankfurt- na- Mayn və Berlin kitabxanalarının) birliyidir. Yeni kitabxananın iqamətgahı Milli kitabxananın effektiv inkişafını təmin etmək üçün güclü maddi- texniki bazaya malik edilmiş Frankfurt-na-Mayn şəhərində yerləşir. Kitabxana üçün yeni binanın tikintisinə 1992-ci ildən başlanmışdır. Onun ümumi fondu 12,5 mln. nüsxə vahididir. Leypsiq və Frankfurt-na-Mayn kitabxanalarında ancaq bir məcburi nüsxə saxlanılır. Frankfurt-na-Mayn kitabxanası Qərbi Almaniyada, Leypsiq kitabxanası isə Şərqi Almaniyada Milli kitabxana funksiyasını yerinə yetirir. Birgə səylər nəticəsində tərtib edilən Milli biblioqrafiya tələbatçılara həm çap, həm də elektron versiyasında təklif edilir. Elektron versiyasında bu informasiya HAB-DB və UNİMARC formatlarında təqdim edilir. Bundan əlavə Milli biblioqrafiyanı özündə əks etdirən CD-ROM və disketlər buraxılır. Göstəricilərin, maqnit lentlərinin, disket və CD-ROM- ların istehsalı və yayılması Frankfurt- na-Mayn kitabxanasında həyata keçirilir. Yeni Alman kitabxanası həmçinin elmi və kütləvi kitabxanaları məlumat və toplu kataloqlarla təchiz edir.

Leypsiq kitabxanası isə öz fəaliyyətini fondların mühafizəsini təmin etməklə davam etdirir və həmçinin Alman muzey kitabının və ilkin yazılı nəşrlərin toplanmasını davam etdirir.

***Dövlət kitabxanaları***

Berlin Dövlət Kitabxanası və ya Almaniya Dövlət Kitabxanası (Deutsche Bibliotehck) - əsası 1659-cu ildə Prussiya kitabxanası adı altında kurfürstlər tərəfindən qoyulmuşdur. Sonralar o Berlin Kral kitabxanası, birinci dünya müharibəsindən sonra Prussiya Dövlət kitabxanası və nəhayət 1984-cü ildə ADR hökumətinin qərarı ilə Alman Dövlət kitabxanası adlandırılmışdır. XIX əsrdə aparıcı alman kitabxanalarından biri kimi Milli kitabxananın müxtəlif funksiyasını da icra etmişdi. Həmin dövrdə kitabxana ilk dəfə mərkəzləşdirilmiş alman kataloqunun tərtib edilməsi təşəbbüsü ilə çıxış etmişdi. Onun inkişafının uzun müddətli tarixi fonda toplanmış qiymətli kitab kolleksiyalarında və ilkin alman yazılı abidələrində əks olunmuşdur. Bununla bərabər kitabxananın yeni adı tarixi xidmətlərinin təsdiqidir.

Prussiya mədəni irsinin Dövlət kitabxana fondu- dövlət kitabxana fondlarının bazasında təsis edilmişdir. İkinci Dünya müharibəsində kitabxana qərb əyalətlərinə evakuasiya olunmuşdur. Əvvəllər Maqdeburq şəhərində sığınacaq tapan kitabxana Qərbi Almaniya kitabxanası adlandırılmışdır. Sonralar Berlin şəhərində Alman Dövlət kitabxanasının yanında ona bina verilmiş və Prussiya mədəni irsinin Dövlət kitabxana fondu adlandırılmağa başlamışdır. Onun fondu daimi olaraq formalaşmış və müntəzəm komplektləşdirilmə nəticəsində yenidən Almaniyanın məşhur kitabsaxlayıcılarından birinə çevrilmişdir. O, mərkəzləşdirilmiş məlumat bazasının və toplu kataloqların təşkilində iştirak edir, beynəlxalq kitab nömrəsi standartının və beynəlxalq musiqi nəşrlərinin standart nömrəsinin (İSBN) funksiyasını həyata keçirir. Alman Dövlət kitabxanası (Berlin şəhəri) və Prussiya mədəni irsinin Dövlət kitabxana fondu Almaniyanın birləşməsindən sonra vahid kitabxanaya çevrildi və Berlin Dövlət kitabxanası- Prussiyanın mədəni irsi adlandırıldı.

***Berlin Dövlət kitabxanası***

Kitabxana federal daxili işlər nazirliyinin tabeliyindədir. Bu nazirlik keçmiş Prussiya muzeylərinin, kitabxanalarının və digər mədəniyyət müəssisələrinin sahibidir. Kitabxananın maliyyələşdirilməsinin 76%- i federal büdcədən, 24%- i isə ərazi büdcəsindən təmin edilir. Kitabxana fondu müxtəlif çap məhsulları ilə komplektləşdirilmişdir. Fondun zənginliyini və rəngarəngliyini aşağıdakı formada qruplaşdırmaq olar:

1. Kitablar - 10 mln. nüsxə
2. İnkunabullar (yığma hərflərlə çap olunmuş ilk kitablar) - 4400 nüsxə
3. Qərbi Avropanın əlyazmaları - 18300 nüsxə
4. Şərq əlyazmaları - 80.000 nüsxə
5. Avtoqraflar - 260.000 nüsxə
6. Musiqi əsərləri (əlyazmaları) - 66.350 nüsxə
7. Dövrü nəşrlərin arxivləri - 1400 nüsxə
8. Çap olunmuş not nəşrləri - 450.000 nüsxə
9. Coğrafi xəritələr və atlaslar - 960.000 nüsxə
10. Cari abunə jurnalları və toplu nəşrlər- 38.000
11. Tarixi qəzet cildləri - 180.000 nüsxə
12. Cari abunə qəzetləri - 400 addan çox
13. Müxtəlif elektron məlumatları - 2,3 mln.
14. Fotoarxivdə saxlanılan təsviri məhsullar - 13,5 mln.

Berlin Dövlət kitabxanası Almaniya kitabxanaları arasında Alman kitabxanasından sonra əhəmiyyətinə görə ikinci yeri tutur. Onun fəaliyyəti universal profilli olub, fondun formalaşdırılmasında xüsusi diqqət əsasən beynəlxalq hüquq məsələlərinə, ümumi şərqşünaslığa, kartoqrafiyalara, xarici qəzetlərə və s. nəşrlərin komplektləşdirilməsinə verilir. Kitabxana həmçinin bir sıra beynəlxalq təşkilatların depozitar mühafizə mərkəzi olub və eyni zamanda kitabxanalararası beynəlxalq abonoment üçün kliring (dövlətlər arasında banklar vasitəsilə nəğd pulsuz haqq- hesab) xidməti funksiyasını yerinə yetirir.

Berlin Dövlət kitabxanası - Prussiyanın mədəni irsinin elmi- tədqiqatı nöqteyi-nəzərinə görə daha çox maraq doğuran bütün elm sahələri üzrə dünya xalqlarının dillərində hər hansı bir formada bütün ölkələrdən tarixi dövrlər üzrə nəşrlərin mətnlərinin surətlərini toplayır.

Zəngin fond və kitabxana külliyyatları ən böyük maddi və mənəvi dəyərlərlə ölçülür. Çünki, fonda toplanmış əlyazmalar, musiqi notları, coğrafi xəritələr, atlaslar, yazıçıların şəxsi arxivləri, qəzetlər, jurnallar, mikrofilmlər və çoxlu sayda məlumat bazası bir çox əsrlərin nəşr məhsullarını əhatə edir. Kitabxana ona etibar edilmiş mədəni dəyərlərin mühafizəsinə də xüsusi diqqət yetirir. Fond İkinci Dünya müharibəsi zamanı gizli yerlərdə saxlanılırdı.

3 milyon kitab və digər materiallara malik bütün fond 30 kilsədə, qəsrlərdə və məktəblərdə yerləşdirildi. Müharibədən sonrakı dövr və Almaniyanın iki dövlətə parçalanması kitabxana fondunun tərkibinə öz təsirini göstərmişdir. 1945-ci ildə fondun az bir hissəsi əsas binaya gətirildi. Fondun bir hissəsi hələ də Rusiya və Polşa dövlətlərindədir.

Berlin Dövlət kitabxanasının fondunda ən qiymətli çap inciləri qorunub saxlanılır. Ən qiymətli kitab sərvətinə Lyüdovik Nemeskonun IX əsr Zənbur kitabı (dini kitab) və Qutenberqin «Bibliya» kitabını aid etmək olar. Kitabxananın ən qədim əlyazması III əsr «Bibliya» kitabının kəlamlarından ibarət məcəllə, ən qədim çap əsəri isə VIII əsrdə Yaponiyada çap olunmuş Xakumantu Daraninn Buddizmə aid mətnidir. Musiqi əsərlərinin əlyazmalarından məşhur bəstəkarların, məsələn, İohan Baxın «Matveyə qarşı ehtiras» əsərini, Bethovenin 4,5, 8, və 9-cu simfoniyalarını, Mosartın bütün məşhur operalarını göstərmək olar.

Bundan əlavə Nikolay Kuzanskinin 1491-ci il «Almaniyanın xəritəsi»ni, dahi kurfürist Fridrix Vilhelmin atlasını və həmçinin çox gözəl Şərq külliyyatının əlyazmalarından 1560-cı ildə nəşr olunmuş Hafizin şerləri də nadir incilərdən sayılır.

Kitabxana ildə 2 milyondan çox müxtəlif növ xidmətlər göstərir ki, bura çap nəşrlərinin verilməsini, yazılı və şifahi informasiyanın ödənilməsini, kitabxanalararası abonoment və sənədlərin tələbatçılara birbaşa çatdırılmasını və s. göstərmək olar. Almaniyanın ən iri universal kitabxanası kimi Berlin Dövlət kitabxanası jurnalların Alman toplu kataloqunun redaksiya işinin məsuliyyətini öz öhdəsinə götürmüşdür.

Bunlardan əlavə kitabxana bir çox Milli elektron göstəricilərinin tərtibində əlaqələndirici funksiyanı icra edir. Bura aiddir: inkunabulların ümumi kataloqu, XVII əsr alman nəşrlərinin siyahısı VD 17, cildlənmiş tarixi nəşrlərin məlumat bazası, qədim coğrafi xəritələrin İKAR və orta əsr əlyazmalarının məlumat bazası. Kitabxana özünün zəngin fondu haqqında elmi cəhətdən əsaslandırılmış informasiyanı müntəzəm olaraq kütləvi tədbirlər, elanlar və mətbuat orqanları vasitəsilə oxuculara çatdırır.

Berlin Dövlət kitabxanasına maliyyə yardımı göstərən sponsorlar da vardır. Onlardan «Berlin Dövlət kitabxanasının dostları», «Berlində Mendelsonun cəmiyyəti», «Karl fon Veberin beynəlxalq cəmiyyəti» və

«Cildlənmiş tarixi nəşrlərin uçotu və təsviri üzrə fəhlə qrupu»nu göstərmək olar.

***Bavariya Dövlət kitabxanası***

Bavariya ərazisinin kitabxanası olub, özünün inkişafı nəticəsində digər elmi kitabxanalardan seçilməklə federal səviyyəyə qalxa bilmişdir. Uzun müddət Bavariya Krallığının Kral kitabxanası adını daşımışdır. Universal kitabxana kimi o, 1663-cü ildən Bavariya üçün çap məhsulunun məcburi nüsxələrini almış və qoruyub gələcək nəsillərə saxlamışdır. Milli və Dövlət kitabxanalarının yaradılmasına qədər olan dövrdə kitabxana, Almaniyanın ən böyük kitabxanalarından biri olmuşdur. Müasir Bavariya Dövlət kitabxanasının fondunda 6,5 mln. nüsxə ədəbiyyat vardır. Kitabxana qeyri- adi qədim kolleksiyaların sahibidir. Kitabxananın fondunda 75 min nüsxə əlyazma və 18 min inkunabul saxlanılır. Bu ən böyük kolleksiya hesab olunur. Hazırda kitabxana Almaniyada ən böyük dövrü nəşrlərin fonduna malikdir. Jurnalların sayı 38 mindən çoxdur.

İkinci dünya müharibəsində kitabxananın fonduna ziyan dəymədiyindən onun bazasında müasir kitabxana- informasiya müəssisəsini yaratmaq mümkün olmuşdur. Kitabxana fondunun formalaşdırılmasında ibtidai icma cəmiyyətinin tarixinə, alman dilində danışan ölkələrə, Fransa və İtaliya dövlətlərinin qədim tarixinə aid materialların toplanmasına xüsusi diqqət yetirilir. Musiqi fondu kitabxananın mühüm əhəmiyyətə malik strukturudur. Özünün müvafiq strukturuna görə Bavariya Dövlət kitabxanası kitabxanalararası abonement üzrə də aparıcı rola malikdir. Berlin Dövlət kitabxanası kimi o da bir sıra beynəlxalq təşkilatlar üçün mərkəzi depozitar saxlayıcısı hesab olunur. Bundan əlavə kitabxana əlyazmaların və kitabların bərpası sahəsində hamının qəbul etdiyi mərkəzlərdən biridir.

***Mərkəzi sahəvi kitabxanalar***

Almaniya kitabxana sistemində dörd mərkəzi sahəvi kitabxananın mövqeyi xüsusi əhəmiyyət kəsb edir. Bunlar, Elmi-texniki informasiya kitabxanası, Kənd təsərrüfatı işçilərinin mərkəzi kitabxanası, Mərkəzi tibb kitabxanası və İqtisadi elmlərin mərkəzi kitabxanasıdır. Bu kitabxanalar federasiya və ərazilər tərəfindən birgə maliyyələşdirilir. Göstərilən kitabxanalar xüsusi səlahiyyətlərə malik olub, maksimal həcmdə öz fondlarını müvafiq profil nəşrləri ilə formalaşdırırlar. Onların hamısı öz ixtisas sahələri üzrə Almaniya KAA üzrə mərkəzlər sayılır. Ənənəvi və kitabxana xidmətlərindən əlavə həmin kitabxanalar kollektiv və şəxsi istifadəçilərə geniş spektrdə müasir informasiya xidmətlərini də göstərirlər.

***Regional kitabxanalar***

Almaniyada elmi kitabxanaların bir xüsusi növü də regional kitabxanalardır. Onlar heç vaxt xüsusi və ali məktəb kitabxanaları kimi birmənalı tipoloji əlamətlərə malik olmurlar. Regional kitabxanaları çox vaxt ərazi kitabxanaları və ya dövlət kitabxanaları adlandırırlar. Almaniyada 19 mln. nüsxə fonda malik 39 regional kitabxana mövcuddur. Regional kitabxanalar qiymətli, qədim kitab kolleksiyalarına malik universal kitabxanalardır. Regional kitabxananın fondunun orta həcmi 500 min nüsxə ədəbiyyatdan ibarət olub, oxucuları il ərzində 153 min nüsxə çap məhsulu ilə təmin edir. Həmin kitabxanalar ərazilərin vəsaiti hesabına fəaliyyət göstərirlər. Bir orta kitabxananın illik təminatı 3,5 mln. marka təşkil edir.

Bu tip kitabxanalar regional toplu kataloqu tərtib edir və ədəbi irsin kolleksiyasını toplayır və digər xidmətlər göstərir. Onlar regional mahiyyət kəsb edən xüsusi tədqiqat mərkəzləri kimi inkişaf etmişlər. İnformasiya məkanında regional kitabxanaların rolu bir qədər zəif olsa da, onların qiymətli fondu yüksək statusunu qoruyub saxlamağa təminat verir. Bu növ kitabxanalara nümunə kimi Baden-Vyrtemberq ərazisinin Milli kitabxanasını göstərə bilərik. Kitabxana üç əsas funksiyanı yerinə yetirir: regionun Milli kitab arxivini təşkil edir, informasiya və mədəni mərkəz kimi fəaliyyət göstərir. Məcburi nüsxələr və digər mənbələrdən daxil olan nəşrlər hesabına fondu 3 mln.- dan çoxdur.

Kitabxana istifadəçilər üçün pulsuz xidmət göstərir. Onun ənənəvi əlifba və sistemli kataloqu vardır. Ştuttqartda çoxlu sayda mədəniyyət ocaqlarının olmasına baxmayaraq, kitabxana mütəmadi surətdə mədəni- kütləvi tədbirlər keçirir.

Universitet kitabxanaları özünün statusuna və sayına görə Almaniyanın kitabxana işində aparıcı yer tutur. Universitet kitabxanalarının ümdə vəzifəsi tələbə və müəllimləri təhsil və tədqiqat işləri aparmaq üçün müvafiq materiallarla təmin etməkdən ibarətdir. Eyni zamanda kütləvi müəssisə kimi onun xidmətlərindən bütün almanlar da bəhrələnə bilərlər. Universitet kitabxanaları müvafiq ərazilər tərəfindən maliyyələşdirilir və onların illik saxlanmasına Almaniya kitabxanalarının istifadə etdikləri maliyyə resurslarının dörddə bir hissəsini xərcləyir. Universitet kitabxanalarının fondunun orta həcmi 1,4 mln. nüsxə olub, ildə 500 min nüsxə ədəbiyyat evə verilir. Hər bir universitetdə təxminən 100 kitabxana işçisi çalışır və kitabxananın fəaliyyətini təmin etmək üçün 2,4 mln. marka vəsait sərf olunur. Universitet kitabxanalarının fəaliyyətinin təşkili bir və ya iki pilləli sistemlə tənzimlənir. Bir pilləli sistem 60-cı illərin ortalarında tikilmiş yeni universitetlər üçün şamil edilir. Bu müasir kitabxana- informasiya müəssisəsi olub, birliyin rəhbəri mərkəzi kitabxananın direktorudur. Mərkəzi kitabxana çox zaman bütün funksiyaları öz öhdəsinə götürür və kafedraların



kitabxanalarına müəyyən qədər müstəqillik verilir.

İki pilləli sistem universitetlərin köhnə kitabxanalarında mövcuddur. Burada mərkəzi universitet kitabxanası ilə bərabər çoxlu sayda müstəqil fəaliyyət göstərən institutun, fakültənin və kafedraların kitabxanaları da vardır. Universitet kitabxanaları Almaniyanın informasiya şəbəkəsinin inteqral tərkib hissəsi olub, regional kompüter sisteminə qoşulmuşdur.

Xüsusi kitabxanalar Almaniyanın elmi kitabxanaları arasında daha çox saylı hesab olunur. Almaniyanın statistikasına görə onların sayı 1000-ə yaxındır. Mütəxəssislərin rəyinə əsasən isə xüsusi kitabxanaların sayı göstərilən rəqəmdən çoxdur. Verilmiş kitabxanaların fondunda ölkənin kitabxana fondunun 4% çap məhsulları toplanmışdır. Almaniyada xüsusi kitabxanalara firma və müəssisələrin, elmi- tədqiqat təşkilatlarının, akademiyanın, parlament və müxtəlif cəmiyyətlərin, muzeylərin, xəstəxanaların və s. idarələrin kitabxanaları aid edilir. Onların fəaliyyət istiqamətləri və tələbatçılara göstərilən xidmətlərin keyfiyyətləri də müxtəlifdir. Bu qrupdan olan kitabxanalar müasir elmi-tədqiqat müəssisələrinin və nəhəng sənaye təşkilatlarının informasiya mərkəzləridir. Həmçinin burada çoxlu sayda kiçik kitabxanalar da fəaliyyət göstərir. Xüsusi kitabxanalar elmi kitabxanalarla müqayisədə öz fəaliyyətlərini icra etmək üçün az vəsait alırlar. Məsələn, bir xüsusi kitabxananın illik xərcləri orta hesabla 170 min marka təşkil edir ki, onun da 90 min markası fondun komplektləşdirilməsinə sərf olunur.

Almaniyanın federal hökuməti kütləvi kitabxanalara münasibətdə «proqramlaşdırılmış xaos» siyasətini yeridir ki, bu da kütləvi kitabxanaların cəmiyyətin maraqlarından bilavasitə asılı edir. Kütləvi kitabxanaları bütün ölkə ərazisində düzgün yerləşdirmək üçün mərkəzləşdirilmiş şəbəkənin yaradılması məsləhətdir. Kitabxana assosiasiyası alman kütləvi kitabxanalarının fəaliyyətini tənzimləməkdən ötrü çoxlu sayda normalar hazırlasa da, ona riayət edilmir. Kütləvi kitabxanalarda da yeni proqressiv texnologiyaların tətbiqinə də, müəyyən qədər fikir verilir. Müasir alman kütləvi kitabxanası yoxsul əhali üçün nəzərdə tutulmuş kitabxanadan inkişaf etdiyinə görə onun fəaliyyəti informasiya xarakteri deyil, tərbiyəvi maarifləndirici səmtə daha çox meyl edir. İkinci dünya müharibəsindən sonra həmin kitabxanalar bütün tələbatçılar üçün nəzərdə tutulmuş universal informasiya müəssisəsinə çevril-

**Kitabxana Assosiasiyasının alman çap nəşrləri ilə komplektləşməsi. (2000- ci ilin yekunu)**

| Kitablar | Vaxt dövrü (illər) | Antikvar nəşrlərlə tamamlanması | | Antikvar nəşrlərin surətləri ilə tamamlanması | Xərclərin cəmi (avro) |
|---|---|---|---|---|---|
| | | Biblioqrafik nüsxələrin sayı | Nəşrlərin sayı (cild) | Nəşrlərin sayı | |
| Bavariya Dövlət kitabxanası | 1450-1600 | 288 | 214 | 1100 | 281187 |
| Hersoq kitabxanası Volfenbyüttel şəh. (Hersoq Avqustanın kitabxanası) | 1601-1700 | 637 | 428 | 3 | 21106 |
| Regional və universitet kitabxanası Qettinqen şəh. | 1701-1800 | 505 | 552 | 2 | 149860 |
| Kütləvi və universitet kitabxanası Frankfurt şəh. | 1801-1870 | 736 | 858 | 239 | 123407 |
| Dövlət kitabxanası Berlin şəh | 1871-1912 | 1426 | 1426 | 13 | 92626 |
| Alman Milli kitabxanası (ancaq retro-spektiv nəşrlər) | 1913- cü ildən indiyə qədər | 2761 | 2761 | 0 | 76709 |

məyə başladı. Həmin dövrdə bütün kitabxanalar sona qədər informasiya mərkəzləri rolunu həyata keçirmək vəziyyətində deyildi. 1970- ci ilin ortalarında kitabxanalar fəaliyyətlərini digər istiqamətlərə yönəltməyə diqqət yetirirdi. Ona görə də, yüksək texnologiyalara malik müasir alman kütləvi kitabxanası hələ də informasiya mərkəzi funksiyasını daşımaqdan çox uzaqdır. Kütləvi kitabxanalar adi əməliyyatları aparmaqla, yəni oxuculara evə kitab verməklə, qismən sadə sorğuları ödəməklə məşğuldur. Kütləvi kitabxanalardan bəziləri müvafiq ərazinin informasiya təminatında tərkib hissəsi kimi fəaliyyət göstərir. «Kommunikasiya mərkəzi», «Şəhərin mədəniyyət işləri», «Sosial kitabxana işi», «Mütaliəyə təsir göstərmək», «Yeni nəşrlərin prezentasiyası (təqdimatı)» və s. kimi aspektlər və digərləri, yəni mədəni- maarif və kitabxana fəaliyyətinin sosial istiqamətləri alman kitabxanaçılarının təfəkküründə həkk olunmuş və orta kütləvi kitabxananın iş prinsiplərini təcəssüm etdirir. Ancaq indi kompüter texnologiyalarının inkişafı, elektron məlumat bazasının formalaşması və iqtisadi faktorların təsiri nəticəsində son illər kütləvi kitabxanaların fəaliyyətində informasiyanın verilməsi istiqamətində inkişaf meylləri güclənməkdədir. Kütləvi kitabxanaların fəaliyyətində xüsusi yeri uşaq və gənclərlə aparılan tədbirlər, əhalinin müxtəlif təbəqələrinə göstərilən kitabxana xidmətləri tutur.

AFR- da 13,5 min kütləvi kitabxana vardır. Hər 6 min əhaliyə 1 kütləvi kitabxana düşür ki, bu da Avropa ölkələri üçün yüksək göstərici hesab olunur. Kütləvi kitabxanaların kortəbii surətdə inkişafı nəticəsində Almaniya əhalisinin hamısı deyil, ancaq 83%- i kitabxana xidmətinə cəlb edilmişdir. Kitabxana xidmətindən istifadə etməyən əhalinin çoxu kənd yerlərinin sakinləridir. Kütləvi kitabxanalar ümumi kitabxanaların 84%- ni, ümumi kitab fondunun 36,8%- ni, maliyyə xərclərinin təqribən yarısını təşkil edir. Kütləvi kitabxanalar özünün daxili resurslarının köməyi ilə kitab verilişinin 80%-ni ödəyir. Sayca az əhali yaşayan məntəqələrə kitabxana xidməti göstərməkdən ötrü səyyar kitabxanalara malik 185 ədəd biblioavtobus vardır.

Orta hesabla hər bir kütləvi kitabxana 10 min nüsxə sənəd fonduna malik olub, il ərzində 676 nəfər oxucuya xidmət göstərir və onlara 22 min sənəd verilir. Nəticədə fondun dövriyyəsi 2,23 təşkil edir. Alman kütləvi kitabxanası (orta səviyyədə olan) həftədə 22 saat işləyir və oxuculara xidmət göstərir.

**Məmməd MƏMMƏDOV,**
**Yaşar QARALIYEV,**
**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının bölmə müdirləri**